

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 74 (21.226)

*17 aprel 2015-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Aprelin 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Metropolitenində olub.

Dövlətimizin başçısı Bakı Metropoliteninin Nəriman Nərimanov adına elektrik deposunda metropolitenin qatar parkının yenilənməsi məqsədilə paytaxta gətirilən yeni qatarlarda yaradılan şəraitlə maraqlanıb.

Dövlətimizin başçısına məlumat verildi ki, metropolitenin qatar parkının yenilənməsi məqsədilə Fransanın "Alstom" şirkəti ilə ötən il memorandum imzalanıb. Həmin memorandumun şərtlərinə uyğun olaraq, bu şirkətlə "Bakı Metropoliteni" QSC arasında bağlanan müqaviləyə əsasən, 5 vaqondan ibarət üç qatarın alınması nəzərdə tutulub. Artıq iki qatar paytaxta gətirilib.

Alınan qatarlar texniki innovasiyalar baxımından 4-cü nəslə mənsubdur. Bu nəsil qatarların idarə edilməsi mikroprosessor əsasında həyata keçirilir. Yeni nəsil vaqonların tutumu 330 sərnişin təşkil edir. Köhnə vaqonlarda isə bu rəqəm 308 idi. Bu texniki göstəricilərdən göründüyü kimi, müasir tələblərə cavab verən yeni qatarlar ən mütərəqqi texnologiyaya, idarəetmə üsuluna malik olmaqla, sərnişinlərin rahat və təhlükəsiz daşınmasını yüksək səviyyədə təmin edəcək.



## Muxtar respublikaya yeni kommunal təyinatlı avtomobillər gətirilmişdir

Bu gün Naxçıvan şəhəri, rayon mərkəzləri və kəndlər tikilən müasir sosial obyektlərlə yanaşı, həm də təmizliyi və abadlığı ilə diqqəti cəlb edir. Yaşayış məntəqələrində kommunal xidmətlərin yaxşılaşdırılması, məişət tullantılarının yığılması və daşınması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.

Aprelin 16-da muxtar respublikaya gətirilmiş 5 ədəd kommunal təyinatlı avtomobilin təqdimatı olmuşdur.

Bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini Azər Zeynalov çıxış edərək demişdir ki, son illər muxtar respublikada həyata keçirilən tikinti-quruculuq tədbirlərinin həcmi xeyli genişləndirilmiş, yaşayış məntəqələri müasirliyə, gözəlliyə qovuşmuşdur. Bu gözəlliyin, abadlığın və səliqə-sahmanın qorunması qarşıda duran başlıca vəzifələrdəndir. Ona görə də muxtar respublikada kommunal xidmətlərin səviyyəsinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür, yeni texnika və avtomobillər alınıb gətirilir.



Azər Zeynalov kommunal xidmət müəssisələrinə yeni avtomobillərin təqdim olunmasını da bu sahədə həyata keçirilən tədbirlərin tərkib hissəsi kimi dəyərləndirmiş, bu sahədə çalışan kollektivlərə işlərində uğurlar arzulamışdır.

"Mersedes-Benz" markalı avtomobillərdən 3-ü Naxçıvan Şəhər Sanitar Təmizlik İdarəsinə, 1-i Babək, 1-i isə Şərur Rayon Kommunal Müəssisələr kombinatlarına verilmişdir.

Bildirilmişdir ki, sürücü kabinəsindən asanlıqla idarə olunan avtomobillər yüksək texniki göstəricilərə və iş əmsalına malikdir. Manevr qabiliyyəti və dözümlülüyü ilə seçilən bu avtomobillərin bunkerinin ümumi tutumu 13 tondur. Silindr formaya malik olan bunker hərəkət zamanı tullantının ətrafa dağılmasının qarşısını alır.

**"Şərq qapısı"**

## Naxçıvan Biznes Mərkəzində sahibkarlar və işəgötürənlərlə görüş keçirilib

"Azərbaycan Respublikasında əmək miqrasiyasının hüquqi tənzimlənməsi" mövzusunda aprelin 16-da keçirilən görüşdə Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin rəis müavini Elnur Məmmədov çıxış edərək bildirib ki, son 20 ildə muxtar respublikada sürətli inkişafa rəvac verən səmərəli iqtisadi siyasət tarazlı və davamlı inkişaf üçün başlıca təkanverici qüvvə olub, regionda iqtisadi fəallıq yüksəlib, sahibkarların normal fəaliyyəti üçün əlverişli biznes mühiti yaradılıb. Müxtəlif peşə istiqamətləri üzrə kadrlara olan tələbatın müəyyənləşdirilməsi üçün muxtar respublikanın əmək bazarında əcnəbi işçiyə olan tələbatın müəyyənləşdirilməsi vacib hesab olunur. Bu məqsədlə işəgötürənlərdən alınmış məlumatlara əsasən, 2015-ci il üçün əmək miqrasiyası kvotasının təsdiq edilməsi məqsədilə Dövlət Miqrasiya Xidməti tərəfindən müvafiq proqnoz tərtib olunaraq Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinə təqdim edilib, müvafiq qərarla 2015-ci il ərzində muxtar respublika ərazisində əmək fəaliyyəti ilə məşğul olmalarına icazə verilən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin sayı 700 nəfər müəyyənləşdirilib. Xidmət tərəfindən qanunsuz əmək miqrasiyasının qarşısının alınması istiqamətində bir sıra tədbirlər həyata keçirilib. Hazırda muxtar respublika ərazisində tikinti və emal sənayesi sahələrində mütəmadi olaraq yoxlamalar aparılır. Yoxlamalar zamanı əcnəbi işçilərin iş icazələrinə malik olmaları, habelə iş icazələrində nəzərdə tutulmuş sahələr üzrə fəaliyyət göstərib-göstərməmələri araşdırılır.

Bildirilib ki, qanunsuz əmək miqrasiyasının qarşısının alınması məqsədilə aparılmış yoxlamalar müasir standartlara uyğun olaraq tənzimlənir və yoxlamaların nəticələri barədə ədliyyə orqanları məlumatlandırılır. Belə ki, tikinti və emal sənayesi sahələrində aparılmış yoxlamalar barədə məlumatlar "sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestri" xüsusi dövlət informasiya ehtiyatına daxil edilməklə çıxarış alınır, bundan əlavə, yoxlamaların nəticələri barədə "sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestri" xüsusi dövlət informasiya ehtiyatı vasitəsilə Ədliyyə Nazirliyinə məlumat verilir. 2015-ci il üçün də sahibkarlıq sahəsində aparılan yoxlamaların illik planı hazırlanaraq təsdiq edilib. Hazırda bu plan əsasında tədbirlər həyata keçirilir.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye nazirinin müavini Anar Əhmədov çıxış edərək qeyd edib ki, muxtar respublika iqtisadiyyatının inkişafı, eləcə də yeni təyinatlı istehsal və xidmət sahələrinin yaradılması daxili əmək bazarında əcnəbi işçi miqrantların sayının artması ilə müşayiət olunur. Əcnəbi işçi qüvvəsinin iqtisadiyyatımızın ayrı-ayrı sahələrinə cəlb olunması prosesində yüksəkixtisaslı mütəxəssislərə üstünlük verilməsi, işəgötürən sahibkarlıq subyektləri tərəfindən yerli kadrların peşə hazırlığının artırılmasına nəzarətin gücləndirilməsi, yerli kadrların yetişdirilməsində əcnəbi mütəxəssislərin təcrübəsindən istifadə edilməsi daxili əmək bazarının qorunmasının



əsas istiqamətləri hesab olunur. Araşdırmalara və müşahidələrə görə, son illər muxtar respublikada xidmət sahələrində peşəkar kadr çatışmazlığı problemi, demək olar ki, həll olunub. Əmək bazarındakı mövcud işçi heyəti lazımi tələblərə məhz təcrübə, müasir kompüter proqramlarından kifayət qədər istifadə etməmə və texnoloji avadanlıq və texnikanın idarə edilməsi kimi sahələrdə geri qalır. Qeyd edilməlidir ki, sahibkarlar və işəgötürənlər yerli kadrların yetişdirilməsinə və onların ixtisaslaşmalarına olduqca az əhəmiyyətli məsələ kimi baxırlar. Halbuki həmin subyektlər yerli kadrların yetişdirilməsinə kapital qoyaraq onların uzunmüddətli əmək müqavilələri əsasında öz müəssisələrində fəaliyyət göstərmələri üçün təşviqedici tədbirlər görə bilərlər. Məsələn, kadrların işəgötürən şirkətin dəstəyi ilə xarici ölkələrdə təhsil almaları təmin edilə bilər ki, beynəlxalq praktikada bu, geniş yayılmış üsuldur.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Qadir Əliyev çıxışında bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilən "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nda işçilərin əmək hüquqlarının təmin edilməsi üzrə bəndinin yer alması işçi hüquqlarına göstərilən davamlı diqqət və qayğının ifadəsidir. Qeyd olunan dövr ərzində əmək bazarının tələbinə uyğun olaraq, iqtisadiyyatın müxtəlif sahələri üzrə ixtisaslı kadrlara olan tələbatı təmin etmək məqsədilə Naxçıvan Regional Peşə Tədris Mərkəzində təşkil edilən peşə kurslarını 306 nəfər bitirib. Peşə kursları ixtisaslı kadrlara olan tələbatı ödəməklə yanaşı, işsiz şəxslərin işlə təmin olunmalarına, həmçinin onların fərdi məşğulluğuna imkanlar yaradır.

Qadir Əliyev deyib ki, müəssisələr işə cəlb etdikləri miqrantları yalnız öz iş yerlərində işlə təmin etməli və bu barədə onlarla iş icazəsinin qüvvədə olduğu müddətə əmək müqaviləsi bağlamalıdırlar. İş icazəsi alınmadan miqrantlarla əmək müqaviləsinin bağlanmasına yol verilmir.

Görüşdə mövzu ilə bağlı müzakirələr aparılıb, slayd nümayiş etdirilib.

**Səbuhi HÜSEYNOV**

*Dünən Şərur rayonunda Şərur Rayon Məşğulluq Mərkəzinin təşkilatçılığı ilə cari ilin ilk əmək yarmarkası keçirilib.*

## Əmək yarmarkasında 73 nəfərə göndəriş verilib

Tədbiri giriş sözü ilə Şərur Rayon Məşğulluq Mərkəzinin direktoru Məmməd Məmmədov açaraq bildirib ki, "Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2006-2015-ci illər)"nın uğurlu icrası əhalinin sosial müdafiəsinin gücləndirilməsində, insanların daimi işlə təmin olunmasında mühüm rol oynayır.

Qeyd olunub ki, vətəndaşların səmərəli məşğulluğunun təmin edilməsi, onların sosial müdafiəsinin gücləndirilməsi, əmək bazarının inkişafı muxtar respublikamızda daim diqqət mərkəzində saxlanılan məsələlərdəndir. Bu baxımdan yeni müəssisələrin fəaliyyətə başlamasına, sahibkarlığın inkişaf etdirilməsinə xüsusi önəm verilir. İşaxtaran vətəndaşların, xüsusilə gənclərin işlə təmin olunmaları sahəsində mühüm əhəmiyyət kəsb edən tədbirlərdən biri də muxtar respublikada müntəzəm olaraq keçirilən əmək yarmarkalarıdır. Yarmarkalara hazırlıq dövründə həyata keçirilən təşkilati işlər, xüsusilə işəgötürənlərlə yaradılan qarşılıqlı əməkdaşlıq münasibətləri bu mühüm aktiv məşğulluq tədbirində işəgötürənlərin, işaxtaran vətəndaşların fəal iştirakını təmin edib. Şərur Rayon Məşğulluq Mərkəzi də öz işini bu istiqamətdə qurub.

Şərur Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Kamal Ələkbərov çıxışında qeyd edib ki, son illər rayonun sosial-iqtisadi inkişafı istiqamətində həyata keçirilən tədbirlər əhalinin məşğulluğuna müsbət təsir göstərib, bunun da nəticəsində yüzlərlə insan müvafiq işlə təmin olunub. Keçirilən əmək yarmarkalarına işaxtaran insanların marağının böyük olması onu göstərir ki, işaxtaranlarda bu yarmarkalarda ixtisaslarına uyğun iş tapmalarına böyük inam vardır.

İşaxtaran vətəndaş Fuad Yusifov tədbirin təşkilatçılarına minnətdarlığını bildirib.

Qeyd olunub ki, belə tədbirlərdə işaxtaran vətəndaşlar yerli məşğulluq orqanlarının xidmətlərindən daha çox bəhrələnir, işəgötürən müəssisələrin məsul nümayəndələri ilə birbaşa ünsiyyət yaratmaq imkanı qazanırlar.

Sonra yarmarkaya gələnlər onlara təqdim olunan vakant iş yerləri ilə tanış olublar. 28 təşkilatdan 305 boş iş yerinin çıxarıldığı əmək yarmarkasında 73 nəfərə işə göndəriş verilib.

**Cəfər ƏLİYEV**

# 2015-ci ilin ilk rübündə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı

Muxtar respublikada çoxşaxəli iqtisadiyyatın formalaşdırılması, qəbul edilmiş dövlət proqramlarının reallaşdırılması istiqamətində tədbirlər 2015-ci ilin ilk rübündə də davam etdirilmişdir. Yanvar-mart ayları ərzində 448 milyon 708 min manat dəyərində ümumi daxili məhsul istehsal edilmişdir ki, bu da bir il öncəki göstəricidən 2,6 faiz çoxdur. Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi ötən ilin müvafiq dövrünə nisbətən 2,8 faiz artaraq 1019 manatı ötmüşdür. Ümumi daxili məhsulun tərkibində maddi istehsalın payı 58,4 faiz təşkil etmişdir.

2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 2015-ci ilin yanvar-mart ayları ərzində sənaye məhsulunun həcmi 2,1 faiz, əsas kapitala yönəldilən investisiyalar 0,2 faiz, kənd təsərrüfatının ümumi məhsulu 5,3 faiz, nəqliyyat sektorunda yük daşınması 2 faiz, informasiya və rabitə xidmətlərinin həcmi 2,7 faiz, o cümlədən mobil rabitə xidməti 1,1 faiz, pərakəndə əmtəə dövriyyəsi 2,8 faiz, əhaliyə göstərilən pullu xidmətlər 3,8 faiz, ixracın həcmi 1,4 faiz, əhalinin gəlirləri 1,7 faiz, hər bir nəfərə düşən gəlirlər 0,6 faiz, bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı isə 3,9 faiz artmışdır.

*Makroiqtisadi göstəricilər*

| Müqayisə predmeti | 2015-ci ilin yanvar-mart ayları (min manat) | 2015-ci ilin yanvar-mart ayları 2014-cü ilin yanvar-mart aylarına nisbətən, faizlə |
|---|---|---|
| Ümumi daxili məhsul | 448708,4 | 102,6* |
| Hər bir nəfərə düşən ümumi daxili məhsul, manat | 1019,1 | 102,8 |
| Sənaye məhsulunun ümumi həcmi | 222727,9 | 102,1* |
| Əsas kapitala yönəldilən investisiyalar | 227816,1 | 100,2 |
| Kənd təsərrüfatının ümumi məhsulu | 23741,1 | 105,3* |
| Nəqliyyat sektorunda yük daşınması, min tonla | 3193,1 | 102,0 |
| İnformasiya və rabitə xidmətlərinin həcmi | 11803,1 | 102,7 |
| o cümlədən mobil rabitə | 9750,7 | 101,1 |
| Pərakəndə əmtəə dövriyyəsi | 212021,6 | 102,8* |
| Əhaliyə göstərilən pullu xidmətlər | 35522,9 | 103,8* |
| Xarici ticarət dövriyyəsi, min ABŞ dolları | 59187,0 | 75,1 |
| o cümlədən ixracın ümumi həcmi | 51620,6 | 101,4 |
| idxalın ümumi həcmi | 7566,4 | 27,2 |
| Əhalinin gəlirləri | 342562,9 | 101,7 |
| Hər bir nəfərə düşən gəlirlər, manatla | 778,0 | 100,6 |
| Bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı, manatla | 392,0 | 103,9 |

*) müqayisəli qiymətlər üzrə

## Sənaye

Muxtar respublikada yüksək texnologiyalı yeni müəssisələrin yaradılması sənayenin dinamik inkişafını təmin etməklə yanaşı, rəqabətədavamlı sənaye məhsulları istehsalının artmasına da təsir göstərmişdir.

2015-ci ilin yanvar-mart aylarında muxtar respublikada 222 milyon 728 min manat həcmində sənaye məhsulu istehsal olunmuşdur ki, bu da ötən ilin müvafiq dövründəki göstəricini 2,1 faiz üstələyir.

Sənaye məhsulu istehsalının 95,9 faizi malların, 4,1 faizi isə xidmətlərin payına düşmüşdür. Sənayenin dövlət sektorunda 15 milyon 855 min manatlıq, qeyri-dövlət sektorunda isə 206 milyon 873 min manatlıq məhsul istehsal olunmuşdur. İstehsal olunan sənaye məhsulunun 92,9 faizi özəl sektorun payına düşmüşdür.

*Sənaye məhsulu istehsalının dinamikası, min manat*




Cari ilin ötən dövrü ərzində muxtar respublikada dövlət dəstəyi ilə iqtisadi fəaliyyətin müxtəlif sahələrində 19 layihə üzrə istehsal və xidmət obyektləri yaradılmış, 32 layihə üzrə istehsal və xidmət obyektlərinin qurulması isə davam etdirilmişdir.

Sənaye sahəsinin inkişafı istiqamətində bank və kredit təşkilatları tərəfindən cari ilin ilk üç ayı ərzində təsərrüfat subyektlərinə 10263,5 min manat həcmində kreditin verilməsi təmin olunmuşdur ki, bu da bir il öncəki müvafiq göstəricidən 32,3 dəfə çoxdur.

Sənayedə istehsalın genişlənməsi ixracın da həcminə müsbət təsir göstərmiş, 2015-ci ilin ilk rübü ərzində 39 milyon 900 min ABŞ dolları dəyərində sənaye məhsulu ixrac olunmuşdur.

## Hərbi quruculuq

Muxtar respublikada etibarlı ordu quruculuğu istiqamətində tədbirlər davam etdirilmişdir. Cari ilin ilk rübü ərzində Naxçıvan şəhərində hərbçilər üçün yaşayış binasının tikintisi başa çatdırılmış, "N" hərbi hissənin qərargah binasının, mərkəzi hərbi xəstəxananın, yaşayış binasının, iki əsgər yataqxanasının, əsgər yeməkxanasının, iki anbarın, texniki nəzarət məntəqəsinin tikintisi üzrə işlər davam etdirilmişdir.

"Naxçıvan" Sərhəd Diviziyasında yeni infrastruktur obyektlərinin inşası davam etdirilir.

Şərur rayonunda "N" hərbi hissəsi üçün infrastruktur obyektlərinin və Kəngərli rayonunda su anbarının tikintisi davam etdirilir.

Cari ilin ilk rübü ərzində Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadasının texniki bazasını gücləndirmək məqsədilə 2 ədəd yeni "Hyundai" markalı avtobus, 1 ədəd "Ford Cargo" markalı avtomobil, 1 ədəd tibbi yardım maşını və 5 ədəd motosiklet hərbçilərin istifadəsinə verilmişdir.

## Tikinti-quruculuq və su təchizatı tədbirləri

İqtisadi və sosial sahələrdə infrastrukturun yenilənməsinin təmin edilməsi, yeni istehsal və xidmət sahələrinin yaradılması istiqamətində cari ilin yanvar-mart ayları ərzində muxtar respublikada bütün maliyyə mənbələri hesabına əsas kapitala 227 milyon 816 min manat həcmində investisiya yönəldilmişdir. İnvestisiya qoyuluşlarının 192 milyon manatı və ya 84,3 faizi tikinti-quraşdırma işlərində istifadə edilmişdir.

2015-ci ilin yanvar-mart ayları ərzində muxtar respublikada 76 müxtəlif təyinatlı obyekt tikilmiş, yenidən qurulmuş və ya əsaslı təmir olunmuşdur. 155 müxtəlif təyinatlı obyektin tikintisi, yenidən qurulması və ya əsaslı təmiri davam etdirilir.

2015-ci ilin ilk rübü ərzində 8 inzibati binanın tikintisi və ya yenidən qurulması başa çatdırılmışdır. 7 inzibati binanın tikintisi, yenidən qurulması və ya əsaslı təmiri davam etdirilir.

Həyata keçirilən irimiqyaslı infrastruktur quruculuğu tədbirləri kəndləri də əhatə etmiş, 2015-ci ilin ilk rübü ərzində 7 kənd mərkəzi istifadəyə verilmişdir. Hazırda 1 kənd mərkəzinin inşası davam etdirilir.

Muxtar respublikada 1 yaşayış binasının yenidən qurulması, 1 yaşayış binasının əsaslı təmiri başa çatdırılmışdır. 4 yaşayış binasının tikintisi, 3 yaşayış binasının yenidən qurulması, 1 yaşayış binasının təmiri davam etdirilir.

Bundan əlavə, Naxçıvan şəhərində "Gənclər şəhərciyi" yaşayış kompleksinin də tikintisi davam etdirilir.

Əhalinin həyat səviyyəsinin yaxşılaşması və dinamik artımı fərdi yaşayış evlərinin tikintisinə müsbət təsir göstərmişdir. 2015-ci ilin yanvar-mart ayları ərzində muxtar respublikada əhalinin şəxsi vəsaiti hesabına, ümumilikdə, 92 min 900 kvadratmetr yaşayış sahəsi istifadəyə verilmişdir ki, bu da 2014-cü ilin müvafiq dövründəki göstəricidən 0,3 faiz çoxdur.

Naxçıvan şəhərində əhalinin keyfiyyətli içməli su ilə təmin edilməsi və kanalizasiya sistemlərinin yenidən qurulması istiqamətində 1 aprel 2015-ci il tarixə 224,8 kilometr məsafədə içməli su və 218,1 kilometr məsafədə kanalizasiya xətləri çəkilmişdir.

Şərur, Babək, Ordubad, Culfa, Kəngərli, Şahbuz və Sədərək rayonlarının mərkəzləri və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya şəbəkələrinin tikintisi istiqamətində, ümumilikdə, 546,1 kilometr məsafədə içməli su və 333,9 kilometr məsafədə kanalizasiya xətləri çəkilmişdir. Muxtar respublikada içməli su və kanalizasiya xətlərinin çəkilişi və 19 subartezian quyusunun tikintisi üzrə işlər davam etdirilir.

## Kənd təsərrüfatı

Muxtar respublikada əhalinin ərzaq məhsullarına olan tələbatının yerli məhsullar hesabına ödənilməsi üzrə həyata keçirilən tədbirlər "Kənd təsərrüfatı ili" elan edilmiş 2015-ci ilin ötən dövrü ərzində də diqqət mərkəzində saxlanılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2008-ci il 17 sentyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nın icrası uğurla davam etdirilir. Bunun nəticəsidir ki, cari ilin ötən dövrü ərzində bitkiçilik məhsulları istehsalının həcmi 2008-ci ilin yanvar-mart aylarına nisbətən 11,5 dəfə artaraq 1 milyon 525 min manata, heyvandarlıq məhsulları istehsalının həcmi isə 96,1 faiz artaraq 22 milyon 216 min manata çatmışdır.

Məhsul istehsalçılarının kənd təsərrüfatı maşın və mexanizmləri ilə təchizatı davamlı olaraq yaxşılaşdırılır. "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 80 ədədi 2015-ci ilin yanvar-mart aylarında olmaqla, cəmi 1585 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və avadanlıq muxtar respublikaya gətirilmişdir. 2015-ci ilin ilk rübü ərzində 23 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və avadanlıq lizinq yolu ilə məhsul istehsalçılarına verilmişdir. Ötən dövr ərzində məhsul istehsalçıları 5939,1 ton mineral gübrə ilə təmin olunmuşlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 14 fevral tarixli Sərəncamı ilə təsdiq olunmuş "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın icrası istiqamətində cari ilin ilk rübü ərzində 2 istixana təsərrüfatı yaradılmışdır. 3 istixana təsərrüfatının yaradılması isə hazırda davam etdirilir.

Bundan əlavə, cari ilin yaz əkinlərinin aparılması üzrə dəstəkləyici tədbirlər həyata keçirilməkdədir.

Kənd təsərrüfatının əsas sahələrindən biri olan heyvandarlığın inkişafı da diqqətdə saxlanılmışdır. 2015-ci ilin ilk rübü ərzində bank və kredit təşkilatları tərəfindən bu sahəyə 2838,8 min manat həcmində kreditlərin verilməsi təmin olunmuşdur. Hazırda 1 heyvandarlıq təsərrüfatının yaradılması və 2 heyvandarlıq təsərrüfatının genişləndirilməsi davam etdirilir.

2015-ci ilin ilk rübü ərzində heyvandarlıq təsərrüfatlarında 1361 baş inək və düyə süni yolla mayalandırılmış, əvvəlki dövrdə mayalandırılmış inək və düyələrdən 1273 baş sağlam buzov alınmışdır.

1 aprel 2015-ci il tarixə muxtar respublikanın bütün təsərrüfat kateqoriyalarında qaramalın sayı 114 min 137 baş, qoyun və keçilərin sayı 700 min 907 baş olmuşdur ki, bu da 1 aprel 2014-cü il tarixə olan göstəriciləri müvafiq olaraq 1,4 və 1,9 faiz üstələyir.

2015-ci ilin yanvar-mart aylarında muxtar respublikada diri çəkidə 5606,4 ton ət, 11899,5 ton süd istehsal olunmuşdur ki, bu da 2014-cü ilin yanvar-mart ayları ilə müqayisədə müvafiq olaraq 6,1 və 1,3 faiz çoxdur.

Daxili bazarda tələbatın yerli istehsal hesabına ödənilməsi məqsədilə 1 quşçuluq, 1 balıqçılıq və 1 arıçılıq təsərrüfatının yaradılması, ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində görülən tədbirlərin davamı olaraq isə 1 soyuducu anbarın inşası davam etdirilir.

Cari ilin ilk rübü ərzində kənd təsərrüfatı ilə məşğul olan təsərrüfat subyektlərinə 4020,7 min manat məbləğində kreditlərin verilməsi təmin olunmuşdur ki, bu da bir il öncəki müvafiq göstəricidən 16,1 faiz çoxdur.

2015-ci ilin yanvar-mart aylarında 2014-cü ilin müvafiq dövrünə nisbətən 5,3 faiz çox, yəni 23 milyon 741 min manat həcmində kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur.

*Kənd təsərrüfatının ümumi məhsulu, min manat*




Muxtar respublikada məhsuldar və keyfiyyətli toxum növləri istehsalının stimullaşdırılması məqsədilə Naxçıvan şəhərində toxumçuluq təsərrüfatı üçün yeni kompleksin inşası davam etdirilir.

2015-ci ilin ilk rübü ərzində muxtar respublikada 11 milyon 700 min ABŞ dollarından artıq həcmdə kənd təsərrüfatı məhsulları ixrac olunmuşdur.

Meliorasiya-irriqasiya sistemlərinin yeniləşdirilməsi diqqət mərkəzində saxlanılmış, cari ilin ötən dövrü ərzində Kəngərli rayonunda yeni nasos stansiyası və suvarma şəbəkəsi istifadəyə verilmişdir. Şərur rayonunda kollektor-drenaj şəbəkələrinin təmizlənməsi, Xanlıqlar və Püsyan kəndləri arasındakı suvarma kanalının yenidən qurulması hazırda davam etdirilir.

Ordubad rayonunda Aza-Dəstə kanalının tikintisi, Şərur rayonunun Püsyan kəndində suvarma boru xəttinin çəkilişi başa çatdırılmışdır.

Culfa rayonunda Yaycı gölünün sugətirici kanalında və Bam kanalında bərpa işləri başa çatdırılmışdır. Araz çayında sahilbərkitmə işləri, Babək rayonunda yeraltı suvarma və drenaj şəbəkələrinin, Şərur rayonunda Arpaçayda və Babək rayonunun Vayxır kəndi ərazisində, Qahab selovunda və Naxçıvançayda istiqamətləndirici bəndlərin tikintisi, Babək rayonunda Uzunoba Su Anbarına sugətirici kanalın təmiri, Sədərək rayonunda kollektor və drenajların bərpası davam etdirilir.

Muxtar respublikada 3 kəhrizin təmiri başa çatdırılmış, 1 kəhrizin bərpası və 5 kəhrizin təmiri davam etdirilir.

Ardı 3-cü səhifədə

## Nəqliyyat, informasiya və rabitə, energetika

Cari ilin ilk rübü ərzində muxtar respublikada müasir yol-nəqliyyat infrastrukturunun yaradılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir.

Naxçıvan şəhərinin Qaraçuq kəndində avtomobil yolunun tikintisi başa çatdırılmışdır. Nizami və İ.Səfərli küçələrində avtomobil yollarının yenidən qurulması davam etdirilir.

Culfa rayonunun Bənəniyar kəndində avtomobil yolunun yenidən qurulması, Gal-Şurud avtomobil yolunun təmiri başa çatdırılmışdır. Babək rayonunda Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolunun yenidən qurulması davam etdirilir.

Şərur rayonunda Cəlilkənddə və Püsyan kəndində daxili avtomobil yollarının yenidən qurulması başa çatdırılmışdır.

Qıvraq-Püsyan-Xanlıqlar avtomobil yolunun yenidən qurulması davam etdirilir.

Naxçıvan şəhərində yerüstü piyada keçidinin tikintisi başa çatdırılmış, 400 yerlik avtomobil parkının tikintisi davam etdirilir.

Əhaliyə göstərilən nəqliyyat xidmətlərinin səviyyəsini yüksəltmək məqsədilə Ordubad rayonunun ucqar kəndlərinə bir istiqamət üzrə yeni marşrut açılmış, Naxçıvan şəhərində yeni taksi xidməti fəaliyyətə başlamış, qonşu ölkələrlə sərnişindaşıma xidmətinin yaxşılaşdırılması istiqamətində müvafiq tədbirlər görülmüşdür.

Ordubad dəmir yolu sərnişin vağzalı binasının və Ordubad yol sahəsinin inzibati binasının tikintisi, Ordubad Stansiya İdarəetmə Mərkəzinin əsaslı təmiri davam etdirilir.

Şərur və Ordubad şəhərlərində aviakassa binalarının tikintisi başa çatdırılmışdır. Naxçıvan Beynəlxalq Hava Limanında yenidənqurma işləri davam etdirilir.

İlin əvvəlindən ötən üç ay ərzində muxtar respublikada nəqliyyat sektorunda yük daşınması 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 2 faiz, sərnişin daşınması isə 1,7 faiz artmışdır. Yük və sərnişin daşınmasından, bütövlükdə, 9 milyon 834 min manat gəlir əldə edilmişdir ki, bu da 2014-cü ilin müvafiq dövründəki göstəricidən 1,6 faiz çoxdur.

Muxtar respublikada informasiya və rabitə sahəsində yeni texnologiyaların tətbiqi, islahatların aparılması bu sahənin dinamik inkişafını təmin etmişdir.

2015-ci ilin ilk rübü ərzində Babək rayonunda rabitə evi istifadəyə verilmişdir. Burada yeni nəsil rabitə və poçt avadanlıqları quraşdırılmış, dövri mətbuatın satışı, teleqram, məktub, pul baratları və bağlamaların qəbulu və göndərişi, rabitə, elektrik enerjisi, təbii qaz və sudan istifadə haqlarının yığılması, mobil cihazların qeydiyyatı və digər bank-maliyyə xidmətlərinin göstərilməsi üçün şərait yaradılmışdır.

Muxtar respublikada poçt sisteminin təkmilləşdirilməsi məqsədilə cari ilin ilk rübü ərzində 7 poçt şöbə və bölməsi avtomatlaşdırılmışdır.

Şərur rayonunda Kürkənddə və Babək rayonunun Qoşadizə kəndində yeni poçt bölmələri istifadəyə verilmiş, Culfa rayonunun Bənəniyar kəndində poçt bölməsi əsaslı təmir edilmiş, Naxçıvan şəhərinin Qaraçuq kəndində poçt bölməsi yeni binaya köçürülmüş, Ordubad rayonunun Dəstə və Kotam, Culfa rayonunun Şurud kəndlərində və Şərur rayonunda Cəlilkənddə poçt bölmələri lazımi avadanlıqlarla təmin olunmuşdur.

Babək rayonunun Qoşadizə kəndində 336, Culfa rayonunun Şurud kəndində 384 nömrə tutumlu avtomat telefon stansiyaları qurulmuş, Babək rayonunda ümumi tutumu 1024 nömrə olan mərkəzi avtomat telefon stansiyası yeni rabitə evinə, Naxçıvan şəhərinin Qaraçuq kəndində avtomat telefon stansiyası isə yeni binaya köçürülmüşdür.

Muxtar respublika ərazisində rəqəmli radio yayımına keçidlə bağlı texniki işlər başa çatdırılmış və radionun sınaq yayımına başlanmışdır.

Naxçıvan şəhərində "Evədək optika" layihəsinin icrası 2015-ci ilin ilk rübündə də davam etdirilmiş, 7 fərdi mənzilə optik kabel xətti çəkilmişdir.

Muxtar respublikada cari ilin ilk rübü ərzində 20 kilometr məsafədə fiber-optik kabel xəttinin çəkilişi aparılmışdır. Ordubad rayonunun Düylün kəndindəki avtomat telefon stansiyasından Çənnəb kəndinədək 8 kilometr məsafədə yeraltı fiber-optik kabel xəttinin çəkilişi davam etdirilmişdir.

"Naxtel" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 4-cü nəsil LTE şəbəkə sisteminin yaradılması üzrə işlər davam etdirilir.

2015-ci ilin yanvar-mart ayları ərzində muxtar respublikada 883 ədəd yeni telefon sabit şəbəkəyə qoşulmuş, 1 aprel 2015-ci il tarixə hər yüz ailəyə düşən telefon aparatlarının sayı 72-yə çatmışdır.

2015-ci ilin ilk rübü ərzində muxtar respublikada informasiya və rabitə xidmətlərinin həcmi 2014-cü ilin müvafiq dövründəki göstəricini 2,7 faiz üstələyərək 11 milyon 803 min manat olmuşdur. Ümumi xidmətlərin 82,6 faizi mobil rabitə xidmətinin payına düşmüşdür ki, bu da 2014-cü ilin müvafiq dövründəki göstəricidən 1,1 faiz çoxdur.

Muxtar respublikanın enerji təhlükəsizliyinin təmin edilməsi diqqət mərkəzində saxlanılır. Bu istiqamətdə görülən işlərin səmərəliliyini artırmaq məqsədilə muxtar respublikada 8 ədəd müxtəlif güclü transformator yarımstansiyası quraşdırılmış, 28 kilometr uzunluğunda 10 və 0,4 kilovoltluq yeni elektrik verilişi xətləri çəkilmişdir.

Ordubad rayonunda 36 meqavat gücündə Ordubad Su Elektrik Stansiyasının və Kəngərli rayonunda 35 meqavolt-amper gücündə "Qıvraq" yarımstansiyasının tikintisi davam etdirilir.

Babək rayonunda 1260 kilovolt-amper gücündə "Nehrəm" yarımstansiyasının yenidən qurulması və 90 meqavolt-amper gücündə "Araz" yarımstansiyasında avadanlıqların yenilənməsi işləri davam etdirilir.

İstehlakçıların təbii qazla fasiləsiz təminatına nail olunmuş, 1 aprel 2015-ci il tarixə 82 min 661 əhali abonentinə təbii qaz verilmişdir.

Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsində yanacaqdoldurma məntəqəsinin tikintisi başa çatdırılmışdır.

## Sahibkarlıq fəaliyyəti, əhalinin gəlirləri və məşğulluq məsələləri

Muxtar respublikada dövlət siyasətinin aparıcı istiqamətlərindən birini təşkil edən sahibkarlığın inkişafı sahəsində tədbirlər davam etdirilir.

2015-ci ilin ilk rübü ərzində muxtar respublikada sahibkarlıq fəaliyyəti üçün verilən kreditlərin həcmi 10029,7 min manat təşkil etmişdir. Bu kreditlərdən 6240,7 min manatı fərdi sahibkarlığın inkişafına, 3789 min manatı isə yeni istehsal sahələrinin yaradılmasına və ya genişləndirilməsinə sərf olunmuşdur. Ümumilikdə, cari ilin üç ayı ərzində muxtar respublikada bank və kredit təşkilatları tərəfindən iqtisadiyyatın bütün sahələri üzrə təsərrüfat subyektlərinə 27269,5 min manat həcmində kreditlərin verilməsi təmin edilmişdir ki, bu da 2014-cü ilin müvafiq dövründəki göstəricidən 2,9 dəfə çoxdur.

2015-ci ilin ilk rübündə muxtar respublikada 7 hüquqi və 625 fiziki şəxs qeydiyyata alınmışdır.

Yerli istehsal sahələrinin inkişafının nəticəsidir ki, bu gün muxtar respublikada 352 növdə məhsul istehsal olunur. Bu məhsulların 117 növü ərzaq, 235 növü qeyri-ərzaq məhsullarıdır. 107 növdə ərzaq, 229 növdə qeyri-ərzaq məhsulları olmaqla, ümumilikdə, 336 növdə məhsula olan tələbatın yerli istehsal hesabına ödənilməsi təmin edilmişdir.

Cari ilin ilk rübündə muxtar respublikada əhalinin gəlirləri bir il öncəyə nisbətdə 1,7 faiz artaraq 342 milyon 563 min manata, onun hər bir nəfərə düşən həcmi isə 0,6 faizlik artımla 778 manata çatmışdır. Bu dövr ərzində orta aylıq əməkhaqqının məbləği 392 manat təşkil etmişdir ki, bu da 2014-cü ilin müvafiq dövründəki göstəricidən 3,9 faiz çoxdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası məqsədilə muxtar respublikada əmək bazarının tənzimlənməsi və əhalinin səmərəli məşğulluğunun təmin edilməsi istiqamətində tədbirlər davam etdirilir.

2015-ci ilin ilk rübü ərzində 686 yeni iş yeri yaradılmışdır ki, bunun da 666-sı və ya 97,1 faizi daimi iş yerləridir.

## İstehlak bazarı

Səmərəli məşğulluq imkanlarının yaradılması əhalinin alıcılıq qabiliyyətinin dinamik yüksəlişini təmin etmişdir.

2015-ci ilin yanvar-mart ayları ərzində muxtar respublikanın istehlak bazarında əhaliyə 247 milyon 545 min manat həcmində istehlak malları satılmış və pullu xidmətlər göstərilmişdir ki, bu da bir il öncəki göstəricidən 2,7 faiz çoxdur.

Əhaliyə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi məqsədilə Naxçıvan şəhərinin Qaraçuq, Şərur rayonunun Kürkənd və Püsyan, Babək rayonunun Qoşadizə, Culfa rayonunun Bənəniyar və Şurud kəndlərində xidmət mərkəzlərinin tikintisi, Şərur rayonunda Cəlilkənddə xidmət mərkəzinin yenidən qurulması başa çatdırılmışdır. Şahbuz rayonunun Gömür kəndində xidmət mərkəzinin tikintisi davam etdirilir.

## Xarici ticarət, bank işi və sığorta fəaliyyəti

Muxtar respublika iqtisadiyyatının inkişafı xarici ticarət əlaqələrinin əhatə dairəsinin genişlənməsinə də şərait yaratmışdır.

2015-ci ilin ilk rübü ərzində muxtar respublikada xarici ticarət dövriyyəsinin həcmi 59 milyon 187 min ABŞ dolları təşkil etmişdir. Xarici ticarət dövriyyəsinin 51 milyon 621 min ABŞ dollarını ixrac, 7 milyon 566 min ABŞ dollarını isə idxal təşkil etmiş və 44 milyon ABŞ dollarından artıq həcmdə müsbət saldo yaranmışdır. 2014-cü ilin yanvar-mart ayları ilə müqayisədə ixracın həcmi 1,4 faiz artmış, idxalın həcmi isə 72,8 faiz azalmışdır.

Bank sektorunun inkişafı üzrə müsbət dinamika qeydə alınmışdır. Əhalinin nağdsız ödəniş vasitələrindən istifadə imkanlarının yaxşılaşdırılması məqsədilə cari ilin ilk rübü ərzində 81 POS-terminal quraşdırılmış və bu göstərici 1 aprel 2015-ci il tarixə 948-ə çatmışdır. POS-terminallardan geniş istifadə vəsaitlərin dövriyyəsinin sürətləndirilməsinə, nağd pulların daşınması, saxlanması və təsərrüfat əməliyyatları xərclərinin azaldılmasına müsbət təsir göstərmişdir.

1 aprel 2015-ci il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 41444-ə çatmışdır ki, bunun da 37983-ü və ya 91,6 faizi aktiv hesablardır. Cari ilin ötən dövrü ərzində açılmış 3190 bank hesabının 3189-u aktiv hesab olmuşdur.

İqtisadi inkişaf tempinə uyğun olaraq, sığorta işi də genişlənməkdədir. 2015-ci ilin ilk rübü ərzində muxtar respublikada bütün sığorta növləri üzrə daxilolmalar 1162,3 min manat olmuşdur ki, bu da bir il öncəki müvafiq göstəricidən 56,6 min manat və ya 5,1 faiz çoxdur.

## Təhsil, səhiyyə, sosial təminat, mədəniyyət və turizm

Təhsil sahəsi üzrə infrastruktur quruculuğu tədbirləri davam etdirilir. Cari ilin ötən dövrü ərzində Naxçıvan Dövlət Universitetində elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturu yaradılmışdır. Mərkəzdə universitetin professor-müəllim və tələbə kontingenti haqqında məlumatlar, idarəetmə ilə bağlı sənədləşmə işləri, müəllimlərin elektron imzaları yeni qurulmuş sistemə köçürülmüş, tədris planları və mühazirələrin elektron bazası yaradılmışdır.

"Universitet" televiziyasında videodərslərin hazırlanması və distant tədrisin tətbiqi məqsədilə avadanlıqlar qurulmuş, virtual studiya yaradılmış, "Universitet" televiziyasının və "Nuhçıxan" radiosunun Naxçıvan şəhərində rəqəmsal formatda yayımı təmin edilmişdir.

"Naxçıvan" Universitetində yeni tədris korpuslarının və sosial obyektlərin tikintisi davam etdirilir.

Ordubad şəhərində 810 şagird yerlik 3 nömrəli tam orta məktəb binasının tikintisi, Şərur rayonunda Kürkənddə 198 şagird yerlik, Babək rayonunun Qoşadizə kəndində 360 şagird yerlik tam orta məktəb binalarının yenidən qurulması, Şərur rayonunda Cəlilkənddə 270 şagird yerlik tam orta məktəb binasının əsaslı təmiri başa çatdırılmışdır. Babək rayonunun Nehrəm kəndində 2 nömrəli tam orta məktəb binasının yenidən qurulması davam etdirilir.

Naxçıvan şəhərində uşaq musiqi məktəbi və Şahbuz şəhərində uşaq bağçası binalarının tikintisi davam etdirilməkdədir.

Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların sosial müdafiəsinin gücləndirilməsi, həmçinin təhsil hüquqlarının təmin olunması da daim diqqət mərkəzindədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı" bu kateqoriyadan olan uşaqlara göstərilən dövlət qayğısının daha bir ifadəsidir.

Əhaliyə göstərilən səhiyyə xidmətlərinin daha da yaxşılaşdırılması istiqamətində Şərur rayonunda Kürkənddə və Babək rayonunun Qoşadizə kəndində feldşer-mama məntəqələrinin tikintisi, Şərur rayonunda Cəlilkənddə həkim ambulatoriyası binasının yenidən qurulması başa çatdırılmışdır. Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklərlə Mübarizə Mərkəzinin, Dəri-Zöhrəvi Dispanserinin və Qazanılmış İmmun Çatışmazlığı Sindromu ilə Mübarizə Mərkəzinin tikintisi, Naxçıvan Muxtar Respublika Xəstəxanasının yenidən qurulması davam etdirilir.

Sosial layihələr çərçivəsində 2015-ci ilin ilk rübü ərzində yüksəkixtisaslı həkim heyəti tərəfindən, ümumilikdə, 109 cərrahi əməliyyat, o cümlədən 32 xəstədə açıq ürək, 18 xəstədə göz əməliyyatları aparılmışdır.

2015-ci ilin ilk rübündə muxtar respublikada hər bir nəfərə düşən aylıq gəlirləri ehtiyac meyarından aşağı olan ailələrə 853 min 933 manat həcmində ünvanlı dövlət sosial yardımı ödənilmişdir. Ünvanlı dövlət sosial yardımı alanların sayı ümumi əhalinin 2,7 faizini təşkil etmişdir ki, bu da öz minimal həddi ilə ümumi inkişafa uyğundur.

Ümumilikdə, bu dövr ərzində 494 tənha ahıl və sağlamlıq imkanları məhdud şəxslərə evlərində sosial-məişət xidmətləri göstərilmiş, Naxçıvan Əlillərin Bərpa Mərkəzində sağlamlıq imkanları məhdud 67 nəfərin, Naxçıvan Uşaq Bərpa Mərkəzində isə 81 uşağın müalicəsi təşkil edilmişdir.

Ötən dövr ərzində sağlamlıq imkanları məhdud 6 nəfər sanatoriya və müalicə pansionatlarına yollayışlarla təmin edilmiş, 138 nəfərə protez-ortopedik xidməti göstərilmiş, 26 nəfər texniki reabilitasiya vasitələri ilə təmin olunmuşdur.

Sağlamlıq imkanları məhdud 10 nəfər Türkiyə Respublikasına müalicəyə göndərilmiş, 10 nəfərin ölkə daxilində müalicəsinə, 19 nəfərin isə sosial-məişət şəraitinin yaxşılaşdırılmasına köməklik göstərilmişdir.

Əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi, öz növbəsində, demoqrafik vəziyyətə müsbət təsir göstərmiş, muxtar respublika əhalisinin sayı 1 mart 2015-ci il tarixə bir il öncəyə nisbətdə 4 min 493 nəfər artaraq 440 min 479 nəfər olmuşdur.

Muxtar respublikada informasiya və kommunikasiya texnologiyalarının inkişafı dövlət orqanları tərəfindən vətəndaşlara yerlərdə hüquqi xidmətlərin göstərilməsinə də şərait yaratmışdır.

Cari ilin ötən dövrü ərzində Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyində və Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətində təşkil edilmiş səyyar xidmət vasitəsilə yerlərdə vətəndaşlara mülkiyyət haqqında sənədlərin, ümumvətəndaş pasportlarının və şəxsiyyət vəsiqələrinin verilməsi və dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi və digər xidmətlər göstərilmişdir.

Muxtar respublikada pensiya və müavinətlərin dayanıqlı maliyyə təminatı formalaşdırılmışdır. Cari ilin ötən dövrü ərzində Dövlət Sosial Müdafiə Fondu tərəfindən pensiya və müavinətlərin ödənilməsinə 28 milyon 501 min manatdan çox vəsait yönəldilmişdir.

Aparılmış məqsədyönlü tədbirlərin nəticəsidir ki, 2015-ci ilin ilk rübü ərzində pensiya və müavinətlərin ödənişi üçün tələb olunan vəsaitin 53 faizi məcburi dövlət sosial sığorta haqqı kimi muxtar respublikada toplanmışdır. Bu göstərici 2014-cü ilin müvafiq dövründə isə 48 faiz təşkil etmişdir.

2015-ci ilin ilk rübü ərzində Dövlət Sosial Müdafiə Fondunun cəmi daxilolmaları 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 11,5 faiz, o cümlədən özəl sektor üzrə 31,9 faiz artmışdır.

Muxtar respublikada bədən tərbiyəsi və idmanın inkişafı üzrə ardıcıl tədbirlər görülür. Bu sahə üzrə infrastrukturun yenilənməsi istiqamətində Kəngərli Rayon Uşaq-gənclər şahmat məktəbi binasının tikintisi davam etdirilir.

Ardı 4-cü səhifədə

Muxtar respublikada maddi və mənəvi dəyərlərimizin qorunması və təbliği diqqətdə saxlanılmış, mədəniyyət obyektlərinin inşası və bərpası davamlı xarakter almışdır. 2015-ci ilin ilk rübü ərzində Şərur rayonunda Cəlilkənddə Cəlil Məmmədquluzadənin Xatirə Muzeyinin tikintisi, mədəniyyət evinin yenidən qurulması, tarixi Buxxana abidəsinin bərpası, məscidin təmiri başa çatdırılmışdır.

Ordubad şəhərində Məhəmməd Tağı Sidqinin ev-muzeyinin tikintisi, Naxçıvan şəhərində Möminə xatın türbəsinin, Culfa rayonunda Əlincəqala tarixi abidəsinin, Gülüstan türbəsinin bərpası davam etdirilir.

Naxçıvan şəhərində Naxçıvançay vadisində və Əziz Əliyev küçəsində parkların tikintisi davam etdirilməkdədir.

Naxçıvan şəhərində və Şərur rayonunda Kürkənddə məscidlərin tikintisi davam etdirilir.

Naxçıvan şəhərində hamam kompleksinin tikintisi davam etdirilir.

Muxtar respublikada turizm sahəsinin inkişafı və təbliği üzrə görülən işlər bu sahənin dinamik inkişafını təmin etmişdir. 2015-ci ilin yanvar-mart ayları ərzində muxtar respublikamıza ölkəmizin digər bölgələrindən və xarici ölkələrdən, ümumilikdə, 90 min 292 nəfər turist gəlmişdir ki, bu da 2014-cü ilin müvafiq dövründəki göstəricidən 2,5 faiz çoxdur.

### Hüquq-mühafizə orqanları ilə iş

Hüquq-mühafizə orqanlarında çalışanların iş şəraitinin yaxşılaşdırılması, bu sahə üzrə infrastrukturun yaradılması və yenilənməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin inzibati binasının, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin Culfa Rayonlararası Müayinə Mərkəzinin, Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin "Naxçıvanterminalkompleks" Birliyi üçün inzibati bina və anbar kompleksinin tikintisi davam etdirilir.

Naxçıvan şəhərində Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin zabitləri üçün yataqxana binasının, Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin yeməkxanasının tikintisi, Sədərək rayonunda Sədərək sərhəd-gömrük-buraxılış məntəqəsinin yenidən qurulması davam etdirilir.

Bu gün muxtar respublikada əldə edilmiş yüksək iqtisadi göstəricilər, infrastrukturun yenilənməsi və əhalinin səmərəli məşğulluğunun təmin edilməsi üzrə görülən genişmiqyaslı işlər qarşıdakı dövrlərdə də iqtisadiyyatımızın dinamik inkişafına etibarlı zəmin yaradır.

***Naxçıvan Muxtar Respublikası***
***Dövlət Statistika Komitəsi***

*Qələbə – 70*

## Veteranlarla görüş



Naxçıvan şəhərindəki 2 nömrəli tam orta məktəbdə 1941-1945-ci illər müharibəsinin iştirakçıları Qara Fərzəliyev və Heydər Heydərovla görüş keçirilib. Tədbiri giriş sözü ilə Naxçıvan Şəhər Təhsil Şöbəsinin müdiri Hüseyn Məmmədyarov açaraq məktəblilərin vətənpərvərlik ruhunda tərbiyə olunmasında belə tədbirlərin əhəmiyyətindən danışıb.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin şöbə müdiri İsmayıl Gülməmmədov məruzə ilə çıxış edib. Qeyd olunub ki, Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 23 fevral tarixli "1941-1945-ci illər müharibəsində qələbənin 70 illik yubileyinə hazırlıq və yubileyin qeyd olunması üzrə Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında" Sərəncamının icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 12 mart tarixli Sərəncamı ilə "1941-1945-ci illər müharibəsində qələbənin 70 illik yubileyinin qeyd olunması üzrə Tədbirlər Planı" təsdiq edilib.

Bildirilib ki, tədbirlər planına əsasən, təhsil müəssisələrində bir dərs saatının 1941-1945-ci illər müharibəsində əldə olunmuş qələbəyə həsr edilməsi, Xatirə Muzeyində distant təhsilin, mədəniyyət müəssisələrində kitab sərgilərinin təşkil edilməsi, təhsil müəssisələrində, hərbi hissələrdə görüşlərin, həmçinin adıçəkilən müharibənin 90 yaşına çatmış veteranlarının yubileylərinin və digər tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub. Məqsəd isə belə tədbirlərlə gənclərdə Vətənə və torpağa məhəbbət hisslərinin gücləndirilməsidir.

Qeyd olunub ki, faşizm üzərində qələbənin əldə olunmasında azərbaycanlılar da qəhrəmanlıqlar göstəriblər. Xalqımızın sarsılmaz iradəsi və inamı ön və arxa cəbhəni birləşdirərək, faşizm üzərində qələbənin reallaşmasına köməyini göstərib. Müharibədə şərəfli döyüş yolu keçmiş həmyerlilərimizin adları bu gün də iftixarla çəkilir. Çünki onların tarixi şücaətləri gənc nəsil üçün əsl vətənpərvərlik nümunəsidir.

Vurğulanıb ki, muxtar respublika əhalisi də alman faşizmi üzərində qələbənin qazanılmasında böyük qəhrəmanlıqlar göstərib. Ön cəbhəyə yola salınan 30 min igid oğul və qızlarımızdan 15 mini müharibədə həlak olub. Üç həmyerlimiz "Sovet İttifaqı Qəhrəmanı" adına layiq görülüb, 1 nəfər "Şöhrət" ordeninin hər üç dərəcəsi ilə, 600 nəfər isə müxtəlif orden və medallarla təltif edilib.

Görüşdə çıxış edən müharibə veteranları, Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının sədri Qara Fərzəliyev, Naxçıvan Şəhər Ağsaqqallar Şurasının sədri Heydər Heydərov bildiriblər ki, ölkəmizdə yaşlı nəslə, müharibə veteranlarına xüsusi diqqət və qayğı göstərilir. Bu diqqət və qayğının əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub. Ulu öndərimiz Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının rəhbəri olarkən muxtar respublikada bu bayram qeyd olunub, ulu öndərin Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra isə 9 may respublikamızda "Qələbə Günü" kimi rəsmiləşdirilib, dövlət bayramları sırasına daxil edilib, müharibə veteranlarının sosial müdafiəsi isə ildən-ilə gücləndirilməkdədir.

Sonra şagirdlərin sualları cavablandırılıb, videoçarx nümayiş etdirilib.

Qeyd edək ki, analoji tədbir Naxçıvan şəhərindəki 4 nömrəli tam orta məktəbdə də keçirilib.

**✍ Muxtar MƏMMƏDOV**

## Aztəminatlı ailəyə baş çəkilib

Muxtar respublikada aparılan uğurlu sosial siyasətin əsas məqsədlərindən biri də ailələrin rifah halını yaxşılaşdırmaqdır. Bunun üçün regionda yeni iş yerləri açılıb, əhalinin məşğulluğu təmin edilib, insanların gəlirləri artırılıb. İqtisadi layihələrdən əldə edilən gəlirlər hesabına sosial proqramlar genişləndirilib, nəticə olaraq, əhalinin sosial müdafiəsi daha da gücləndirilib.

Aztəminatlı ailələrlə görüşlərin keçirilməsi həmin ailələrin sosial müdafiəsini yaxşılaşdırmaq məqsədi daşıyır. Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Səhiyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri və Şərur Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Şərur rayonunun Qışlaqabbas kəndində yaşayan Məmmədovlar ailəsinə baş çəkilib. Sözügedən təşkilatın əməkdaşları ailənin yaşayış şəraiti ilə maraqlanıb, ailə üzvləri tibbi müayinədən keçirilib, onlara ərzaq payı verilib.

Sonda ailənin üzvləri göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və***
***Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Muxtar respublikanı final mərhələsində hansı komandalar təmsil edəcək?

Naxçıvan şəhərindəki "N" hərbi hissədə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Əlahiddə Ümumqoşun Ordusu, Təhsil Nazirliyi, Fövqəladə Hallar Nazirliyi və Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin birgə təşkilatçılığı ilə "Şahin" hərbi-idman oyunlarının Naxçıvan Muxtar Respublikası üzrə zona birinciliyi keçirilib. Yarışın keçirilməsində əsas məqsəd böyüməkdə olan nəslin hərbi-vətənpərvərlik tərbiyəsinə diqqət və qayğını daha da artırmaq, məktəb şagirdlərini hərbi-idman oyunlarına cəlb etməklə onların ordu sıralarında xidmətə hazırlanmasına kömək göstərilməsindən ibarətdir. Tədbirin açılış mərasimində Gənclər və İdman Nazirliyinin, Təhsil Nazirliyinin və Əlahiddə Ümumqoşun Ordusunun nümayəndələri çıxış edərək tədbirin keçirilmə məqsədindən danışıb, iştirakçılara uğurlar arzulayıblar.

Yarışda hər bir komandanın heyətində 14 şagird (VIII-X sinif şagirdləri) olmaqla, 9 komanda iştirak edib və onlar 8 mərhələ üzrə yarışıblar.

Yekun nəticəyə əsasən, Culfa rayon Saltaq kənd tam orta məktəbinin komandası birinci yerə layiq görülüb. Şahbuz şəhər 1 nömrəli tam orta məktəbin komandası ikinci, Ordubad şəhərindəki internat məktəbinin komandası isə üçüncü olub.

Qaliblər təşkilatçılar tərəfindən diplom, fəxri fərman və kuboklarla təltif ediliblər.

Məlumat üçün bildirək ki, Culfa rayon Saltaq kənd tam orta məktəbinin və Şahbuz şəhər 1 nömrəli tam orta məktəbin komandaları Bakı şəhərində keçiriləcək "Şahin" hərbi-idman oyunlarının respublika finalında muxtar respublikanı təmsil edəcəklər.

**✍ Ceyhun MƏMMƏDOV**

## O, yüzlərlə döyüşçünün sağalıb yenidən cəbhəyə qayıtmasında böyük rəşadət göstərmişdir



62 milyon insanın qanına bais olan İkinci Cahan müharibəsində SSRİ-nin tərkib hissəsi kimi Azərbaycan xalqının da igid oğul və qızları qəhrəmanlıq göstərmişlər. Cəbhəyə Azərbaycandan 700 minədək oğul və qızlar göndərilmişdir. O cümlədən Naxçıvandan 30 minədək döyüşçü bu qanlı müharibədə iştirak etmişdir.

O zaman cəbhəyə yollanan cəsur Vətən övladlarından biri də Naxçıvan şəhər sakini, 19 yaşlı tibb bacısı Dilbər Təhməzbəyova idi. O, müharibənin ilk günündə orduya çağırılaraq tibb bacısı kimi Şimali Qafqazda – Qroznıda yerləşən hərbi xəstəxanaya göndərilir. Tbilisidəki üçillik hərbi həkim kursunu 3 aya mənimsəyib kiçik leytenant rütbəsi ilə 402-ci Azərbaycan atıcı diviziyasının hərbi xəstəxanasında cərrahiyyə şöbəsinin baş tibb bacısı təyin olunur. Müharibənin qanlı 4 ilində Dilbər xanım özü də bir donor kimi şəxsən qan vermiş, gecə-gündüz yuxu çimiri çalmadan keçirilən əməliyyatlarda iştirak etmiş, minlərlə döyüşçünün, əsgər və zabitin sağalıb yenidən cəbhəyə qayıtmasında böyük rəşadət göstərmişdir.

Dilbər xanım həmin hərbi xəstəxanada xidmət edən 9 tibb bacısı rəfiqəsini, onlarla hərbi cərrah həkimlərini indi də dərin hörmətlə xatırlayır. Səkinə Əliyeva, Zərifə Camalbəyova, Xeyrənsə Abdullayeva, Səfiyyə Sultanova, Surə Allahverdiyeva, kapitan Ələsgər Ələsgərov, Mürsəl Qarayev, Ağasət Məmmədov, Cavad Cavadov, Məmməd Tahirov və başqaları 402-ci diviziyanın komandiri, məşhur sərkərdə, sinəsini vətənin orden və medalları bəzəyən general-mayor Akim Abbasovun bütün göstərişlərini ürəklərinin odu-alovu ilə yerinə yetirirdilər. Birləşmiş atıcı diviziyaları Berlinə doğru irəlilədikcə yaralananlar birbaşa Şimali Qafqazdakı bu hərbi xəstəxanaya çatdırılırdı. Vətən qarşısındakı şərəfli xidmətlərinə görə 1941-1945-ci illər müharibəsinin II dərəcəli ordeni, bütün xalqların yaralı övladlarına fərq qoymadan öz doğmaları kimi tibbi yardım göstərdiyinə görə "Xalqlar dostluğu" ordeni, Şimali Qafqazın, Ukraynanın müdafiəsi, faşizm üzərində qələbənin 25, 30, 40, 50, 60, 65-ci illəri yubiley medalları, yüzlərlə döyüşçüyə şəxsən qan verdiyinə görə "SSRİ-nin əlaçı donor səhiyyə işçisi" medalı, dinc quruculuqda "Əmək veteranı" medalı, "Əməkdə fərqlənmə" döş nişanları ilə təltif olunan Dilbər Təhməzbəyova tibb sahəsində nə az, nə çox, düz 74 il fasiləsiz xidmət göstərmişdir.

Alman faşizmi üzərində tarixi qələbənin 55 illiyi münasibətilə 2000-ci ildə Moskvada keçirilən təntənəli yığıncağa Dilbər Təhməzbəyova da dəvət olunmuşdur.

Veteranlarımızın göstərdikləri şücaətlər dövlətimiz tərəfindən daim yüksək qiymətləndirilir, onların sosial müdafiəsi ilbəil yaxşılaşdırılır. İki il əvvəl Dilbər Təhməzbəyova avtomobillə təmin edilmişdir.

Dilbər xanım görkəmli incəsənət xadimi, "O, Naxçıvandır" mahnısının bəstəçisi, Naxçıvanda mahnı və rəqs ansamblının ilk yaradıcısı və rəhbəri olmuş Vahid Axundovla ailə həyatı qurmuşdur. Saçları Naxçıvan dağlarının qarlı zirvəsini xatırladan Dilbər xanımı bir sual daim narahat edir: 1946-cı ildə Nürnberqdə beynəlxalq məhkəmədə faşizm cəlladları boğazından asılmaqla cəzalarına çatdıqları halda, Azərbaycan xalqına qəsd edən erməni faşizmi hələ haqq divanına çəkilməyib. Dünya bu ədalətsizliyə niyə göz yumur?

O günü görmək, torpaqlarımızın bütövlüyünə nail olmaq arzusu ilə yaşayan Təhmasiblər nəslinin layiqli nümayəndəsi Dilbər ananın arzusuna qoşularaq Vətənin bu fədakar övladına möhkəm cansağlığı arzulayırıq.

**Qaşdar ƏLİYEV**


## Azərbaycan Respublikası Təhsil Nazirliyi

*Naxçıvan Dövlət Universiteti aşağıdakı kafedralar üzrə müsabiqə elan edir*

**Kafedralar üzrə kafedra müdiri vəzifəsini tutmaq üçün**

1. Meliorasiya və su təsərrüfatı tikintisi mühəndisliyi

**Kafedralarda boş olan vəzifələri tutmaq üçün**

1. Coğrafiya – müəllim – 2 yer; baş müəllim – 1 yer; dosent – 1 yer (0,5 ştat)
2. Fəlsəfə və politologiya – dosent – 1 yer (0,5 ştat)
3. Fənlərin tədrisi metodikası və texnologiya müəllimliyi – baş müəllim – 1 yer
4. Pedaqogika və psixologiya – dosent – 2 yer (0,5 ştat)
5. Nəqliyyat mühəndisliyi – baş müəllim – 1 yer
6. Orkestr alətləri və dirijorluq – müəllim – 1 yer; baş müəllim – 1 yer
7. Xalq çalğı alətləri – baş müəllim – 2 yer
8. Fortepiano – baş müəllim – 2 yer
9. Musiqişünaslıq və metodika – baş müəllim – 1 yer
10. Musiqi təlimi – baş müəllim – 1 yer
11. Şərq dilləri və ədəbiyyatı – müəllim – 1 yer
12. İngilis dili – baş müəllim – 4 yer
13. Hüquq fənləri – müəllim – 1 yer
14. Botanika – baş müəllm – 1 yer; dosent – 1 yer
15. Kimya – müəllim – 1 yer
16. Rabitə və informasiya – dosent – 1 yer (0,5 ştat); baş müəllim – 1 yer (0,5 ştat)
17. Rus dili və ədəbiyyatı – baş müəllim – 1 yer; dosent – 1 yer (0,5 ştat)
18. Ümumi və nəzəri fizika – dosent – 1 yer (0,5 ştat); baş müəllim – 1 yer
19. Ümumi riyaziyyat – baş müəllim – 1 yer (0,5 ştat)
20. Azərbaycan dilçiliyi – dosent – 1 yer
21. Ümumi təbabət və gigiyena – dosent – 1 yer (0,5 ştat)
22. Təməl tibb fənləri – dosent – 1 yer (0,5 ştat)
23. Azərbaycan tarixi – dosent – 1 yer (0,5 ştat); dosent – 1 yer
24. Bədən tərbiyəsi və idman – baş müəllim – 2 yer; baş müəllim – 1 yer (0,5 ştat)
25. Baytarlıq təbabəti – professor – 1 yer (0,5 ştat)
26. Əczaçılıq və stomatologiya – baş müəllim – 1 yer
27. Bəstəkarlıq – baş müəllim – 1 yer; dosent – 1 yer
28. Tibbi klinik fənlər – baş müəllim – 1 yer; dosent – 1 yer
39. Çağırışaqədərki hazırlıq və mülki müdafiə – baş müəllim – 2 yer; dosent – 1 yer
30. Arxiv işi, muzeyşünaslıq və tarixi abidələrin qorunması – baş müəllim – 1 yer (0,5 ştat)
31. Dünya iqtisadiyyatı – dosent – 1 yer.

***Müsabiqə üçün sənədlər bu elan qəzetdə dərc olunduğu gündən bir ay müddətində müvafiq qaydada təqdim edilə bilər.***

***Ünvan: Naxçıvan şəhəri, Universitet şəhərciyi***
***Telefonlar: (036) 545-23-66, (036) 545-10-01***

### *İtmişdir*

Naxçıvan şəhəri, "Qoçüstü" məhəlləsi, bina 4, mənzil 30-da yaşayan Səfərova Xatirə Abdulla qızının adına olan 6429 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

Babək rayonunun Yuxarı Uzunoba kəndində yaşamış Allahverdiyeva Gülxanım Fərəc qızının adına Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən 16 yanvar 2008-ci il tarixdə verilmiş 0006527 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

* * *

Babək rayonunun Yuxarı Uzunoba kəndində yaşamış Allahverdiyeva Gülxanım Fərəc qızının adına Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən 16 yanvar 2008-ci il tarixdə verilmiş 0006528 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, Şəhriyar küçəsi, ev 15-də yaşamış Fətullayeva Səfiyə Mehdiqulu qızının adına olan 657 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.



**ŞƏRQ qapısı**

**Baş redaktor:**
**TURAL SƏFƏROV**

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*
Telefonlar: *Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Əli Cabbarov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 4020. Sifariş № 315**